# Görkəmli oftalmoloq İrpendə anıldı





**Ukraynanın İrpen şəhərində Azərbaycanın görkəmli elm xadimi, oftalmoloq-alim, akademik Zərifə Əliyevanın vəfatının ildönümü ilə bağlı anım tədbiri keçirilib.**

Tədbirdə Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev, Ukraynanın Azərbaycandakı səfiri Yuri Qusev, İrpen şəhərinin meri Oleksandr Markuşin, SOCAR-ın Ukraynadakı nümayəndəliyinin rəhbəri Elçin Məmmədov, Zərifə Əliyeva adına 12 saylı orta məktəbin kollektivi, ictimaiyyətin nümayuəndələri və media təmsilçiləri iştirak ediblər.

Əvvəlcə akademik Zərifə Əliyevanın İrpen şəhərindəki büstü önünə tər çiçəklər düzülüb, əziz xatirəsinə ehtiram ifadə olunub.

Akademik Zərifə Əliyeva adına 12 saylı humanitar "Linqvist" liseyinin direktoru Valentina Antonenko çıxış edərək bildirib ki, hər il olduğu kimi, bu gün də Zərifə Əliyevanın xatirəsi ehtiramla anılır.

"Mən çox xoşbəxt insanam ki, daim qəlbimdə Azərbaycan, Bakı, Naxçıvan, Şahtaxtı sevgisi var. Azərbaycanın görkəmli qızı Zərifə Əliyeva həm də Ümummilli Lider Heydər Əliyevin silahdaşı və etibarlı dostu, bu ölkəyə Lider, Prezident bəxş edən gözəl anadır", – deyə Valentina Antonenko əlavə edib.

Sonra məktəbin şagirdləri Azərbaycan dilində dostluq şüarları, "Azərbaycan" şeirini səsləndiriblər.

Anım tədbirində çıxış edənlər Zərifə Əliyevanın zəngin həyatından və fəaliyyətindən danışıblar.

Daha sonra qonaqlar Zərifə Əliyeva adına 12 saylı orta məktəbə gedərək akademikin adını daşıyan muzeylə tanış olublar.

İrpen şəhərinin meri Oleksandr Markuşin bildirib ki, Zərifə Əliyevə insanlara kömək edən, işıq verən parlaq, əziz insan olub. O, dünyada tanınmış oftalmoloq olub. İrpendə hər zaman olduğu kimi, bu gün də görkəmli oftalmoloq-alimin xatirəsi böyük hörmətlə anıldı.

**XQ**

Xalq qəzeti .- 2024.- 16 aprel, № 75.- S.6.